

# YARI YOLDA QALDI ÖMÜR KARVANI

Onu tanıyanlar çoxdur, sevənlər də.
XX əsr Azərbaycan şerinə yeni nəfəs, yeni poetik duyğular gətirən şairlərdən biri idi Səyavuş Sərxanlı.
O, 1943-cü ildə Şəmkir rayonunun Sərxan obasında dünyaya göz açıb. Şəhər həyatına erkən atılan şairin "Göy suların sultanı", "Mənim nərgizli dünyam", "Dünya sevənlərindir", "Qayıt", "Anamın səsi gəlir" və ölümündən sonra "Məni soruşan olsa" adlı şerlər kitabı çapdan çıxıb. 2005-ci ilin mart ayında vəfat edib.

*Mən qəmli olanda, dəyməyin mənə,*
*Elə bilməyin ki, tənhayam, təkəm.*
*Batıram dünyanın dərinliyinə -*
*Beləcə, gözlərim yol çəkə-çəkə...*

Bu aralar çox yorğunam. Yazan qələmdən, yazılan vərəqdən uzaqlaşmaq istəyirəm. Ovundurub ürəyimi hansısa bir şirin sözlə uzaqlaşmaq istəyirəm.

Amma bu gün nəsə demək istəyirəm. O paslanmış duyğuları ürəyimdən birdəfəlik atıb, gömmək istəyirəm.

İstəyirəm bir şam kimi yanıb sönən bir ürəkdən yazım yenə. Aşıb-daşdı sözüm yenə. Mayası qədim Sərxan dərəsinin füsunkar gözəlliyindən, şırhaşırla axan göz yaşı kimi büllur bulaqlardan, buz kimi kəhriz sularından, naxış-naxış, yamyaşıl çəmənlərindən, dərdlərə dəva min bir çiçək palitrasından, daha nələrdən-nələrdən yoğrulan əbədilik simvolu.

80-cı illər Azərbaycan ədəbiyyatının publisistika, poeziya aləmində Səyavuş adlı bir günəş parladı. Elə bir günəş ki, ziyasından hər yana, hər kəsə pay düşdü. Zəmanəsinin sayılıb-seçilən söz xiridarlarından oldu. Söz dəryasına, şer ümmanına baş vurdu. Damla-damla, qətrə-qətrə sözü ciyərlərinə çəkdi. Damarlarına hopdurdu. Bəzən poeziya dənizində bir təlatümə çevrildi. Yazdı, yazdı, yazdıqca da coşdu Səyavuş müəllim.

Atasından-anasından məhəbbəti, elindən-obasından hörməti, dostundan-yoldaşından sədaqəti, sevdiyi gözəldən ayrılığı, həsrəti, qoynunda boya-başa çatdığı dağlardan vüqarı, əzəməti, qürbət eldən möhnəti, Vətən adlı bir məfhumdan qeyrəti və bir də özünün mənəvi saflıq dünyasından qüruru, mətanəti əxz eylədi. Bu duyğuları şerlərinə ilham mənbəyi, ilham qaynağı etdi. Onun üçün bir gözəlin süzgün baxışı da, yerişi də, bir körpənin qığıltısı da, bir qarının duruşu da, çayların şırıltısı da, küləyin əsməsi də, yağışın yağması da şer idi. Qarşımda onun iki kitabı var. "Dünya sevənlərindir", "Anamın səsi gəlir". Oxuyuram, oxuduqca vərəqlərin arasında Səyavuş şerinin poetikası, içdən söylənən fikirləri ovsunlayır məni:

*Lələ yerin qulağı tək açılıb yenə,*
*Ay qoca dağ, bir yol ayıl, adam tanı*
*Qürubuna göz qoyaram, gözüm yanar*
*Hər addımın xatirələr qəbristanı*
*Daşlarına üz qoyaram, üzüm yanar.*

Səyavuşun sözü var ki, əsir edir adamı. Səyavuşun sözü var ki, qılınc kimi kəsir adamı. Şerləri oxuyursan, elə bil ki, pətəklərdən bal süzülür. İbarəsi, kəlamları səf-səf olur, misralara düzülür. Çobanların tütək səsi hər sözünün canındadı. O dumduru axan sular, şəlalənin zümzüməsi damarında, qanındadı. Ələsgəri yad eyləyir. Elə deyir, elə bil ki, ustad aşıq yanındadır.

*Adi taxta, adı dərin,*
*Dərdi yanar, odu sərin.*
*Babaların ömür yazı,*
*Obaların toy libası...*
*Küləklərə qoşulandan olub atlı,*
*Yer üzünə ünvan yazır.*
*Azərbaycan yurdu adlı!*
*Bu ünvanın işığıdı, gərəyidi.*
*Ələsgərin telli sazı,*
*Dağdan ağır bir millətin,*
*Tel-tel olmuş,*
*Nəğmələnmiş ürəyidi.*
*Ələsgərin telli sazı!..*

O, vətənin oğlu idi. Vətəndaşı olduğu vətəninə gör nə qədər söz söylədi, şer yazdı. Ürəyinə yatmadı heç. Yenə dedi: belə bir məmləkət üçün bunlar azdı.

*Yer qədər, göy qədər uludur Vətən,*
*Hərdən kainatla o tən görünər.*
*Bütün yer üzünü dolaşsam da mən,*
*Yenə ürəyimdən vətən görünər.*

Doğma respublikamızdan kənarda, çox yerlərdə olmuşdu şair. Uzaq Sibir çöllərində, Baykal-Amur Magistralında, Pribaltika ölkələrində, Donbasda dəfələrlə olmuşdu. Onun ömür qatarı hansı ölkəyə yol alırdısa, o yerlərin bütün gözəllikləri Səyavuş şerinin misralarına çevrilirdi. Gördüyü hər nə varsa olduğu kimi vəsf edirdi.

Doğrudur, çox şəhərləri gəzmiş, dolanmışdı şair. Amma özünün dediyi kimi azmüddətli ayrılıqdan alovlara qalanmışdı şair. Ürəyi həmişə vətən deyirdi. Qürbət saraylarında "öz yerimdə, öz yurdumda bülbül olam, ötəm" deyirdi.

*Bizim obaların*
*Şeri, bayatısı, toyu-mağarı,*
*Vətəndir mənə.*
*Bizim babaların,*
*Kövrək xatirəsi, çıraq ağılı*
*Vətəndir mənə.*
*Qarı nənələrin dolu sinəsi,*
*Gecəni gündüzə qatan nağılı*
*Vətəndir mənə.*

Səyavuş Sərxanlı olduqca narahat insan idi. Elə bil həmişə harasa tələsirdi. Hansısa qəribə, sirli hiss onu ata-baba ocağına, Sərxan elinə çağırırdı, çəkirdi. Sızım-sızım sızlayırdı. Bu yurdun hər gədiyi, hər qarışı üçün darıxırdı.

*Bu dünyaya, insanlığa, düz ürəyə,*
*Duz-çörəyə əlhəd daşı - ata yurdu.*
*Bu düynaya, insanlığa, düz-çörəyə,*
*Duz-çörəyə, layiq ola bilməyəndə,*
*Mənə, sənə, ona, bizə nəhlət daşı- ata yurdu!*

Ata yurdu, onun uşaqlıq dünyasından soraq verən saf duyğular, şirin kövrək xatirələr məkanıdır. Elə bir məkan ki, kənd uşaqları ilə yorulmadan yüyürüb-qaçmış, gizlənpaç oynamış, kəhriz üstə gedən su sonası gözəlləri oğrun-oğrun süzmüşdü. Məna dolu günlərini, anlarını məhz bu yurdda, Sərxan obasında yaşamışdı Səyavuş müəllim. Kim bilir bəlkə də alnına, qismətinə şairlik yazılanda onun ilk ilham mənbəyi olmuşdu bu xatirələr. Şair bu yerlərin təsvirini elə dolğun, elə mənalı fikirlərlə ifadə etmişdi ki, oxuduqca xəyalən o yerlərin qoynunda hiss edirsən özünü.

Səyavuş Sərxanlı həyatı sevirdi. Və həyatı duya-duya, dərk edə-edə, yana-yana yazırdı.

Hər kəlməni yaşayaraq yazırdı. Onun sevib-sevilənlərin ürəyini oxuyan məhəbbət şerləri hər zaman dillər əzbəridir.

*Məhəbbət yolunu bir yol bilmişəm*
*Min yol ağlamışam, min yol gülmüşəm*
*Bir yol görənəcən min yol ölmüşəm*
*Dəymə, gileyləri daşana dəymə.*

Və ya

*Görən neyləyirsən indi, hardasan?*
*Qonağın fikirmi, xəyalını sənin?*
*Başıma dumanlar endi, hardasan,*
*Hardasan a gülüm, a tez küsənim?*

Bəli, o sevirdi və sevilirdi. Kiməsə ünvanlayıb söylədiyi şer parçası onun ürəyinin səsi idi. Doğruluğun, həqiqətin, reallığın vurğunu idi. Düz sözü deməkdən çəkinməzdi. Bir sözlə, həyat dolu bir insan idi Səyavuş Sərxanlı. Nə yazıq ki, Ulu tanrı onu bizlərə çox gördü. Onun ömür karvanı, ömür qatarı yarı yolda qaldı. Hələ deyiləsi sözü çox idi, yazılası şerləri də. Amansız fələk onun qələmini yarı yazılmış vərəq üstündə susqun qoydu. O bir əlçim buluda çevrildi. Dönüb yaz, payız yağışına bütün gözəlliyi ilə yağdı ömrümüzə-günümüzə. Səyavuşsevərlərin qəlbində əbədi taxt qurdu. Vaxtsız ölümü özünə, şəxsiyyətinə, insanlığına yaraşmayan Səyavuş müəllim aramızdan erkən getdi. Əcəl quşu başının üstünü tez aldı. Köçəri durnalar kimi köç etdi, ayrıldı bizlərdən. Köçəri quşlar qayıdacaq, amma o bir daha qayıtmayacaq. Onu bizlər ürəyimizdə, içimizdə, canımızda, qanımızda, yaddaşımızda daim yaşadacağıq. Onun özü köçsə də, bizimlə qalan, bizimlə olan şerləri, kitabları, söhbətləri, görüşləri yaşayır. Böyük yaradanın qisməti ilə barışıb "Bunlar bizə yetər" deyirik.

**Aləmzar PƏNAHQIZI**